Uşaqlar üçün Müqəddəs Kitab
təqdim edir

# Əlvida, Firon!



Müəllif: Edward Hughes

İllüstrasiya edən: Janie Forest; Alastair Paterson

Uyğunlaşdıran: Lyn Doerksen

Tərcümə edən: Günay Əsədova

Təqdim edən: Bible for Children
www.M1914.org

©2021 Bible for Children, Inc.
Lisenziya: Bu kitabı satmamaq şərti ilə kitabın surətini çıxarda bilmək hüququna maliksiniz.



Firon qəzəbli idi! Allah Musa vasitəsilə İsrailli köləlləri Misirdən çıxmasına izin verməsini ona əmr etmişdi. O imtina etdi.



Firon kölə ağalarına əmr etdi: “Onların işlərini daha da çətinləşdirin”.

Fironun yeni əmrləri bunlar idi: “Samanı özünüz toplayın.  Biz daha sizə saman verməyəcəyik.  Lakin



əvvəlki sayda kərpic düzəldin”.




İş nəzarətçiləri bir neçə köləni qamçıladılar, çünki onların kərpic düzəldə-düzəldə saman toplamağa vaxtları yox idi.



Adamlar öz əzablarına görə Musa və Harunu günahlandırdılar. Musa dua etmək üçün yer tapdı. O fəryad etdi:

“Ya Rəbb, Sən heç Öz xalqını xilas etmədin”.



Allah cavab verdi: “Mən Rəbbəm və Mən sizi çıxardacağam”.

Sonra
Allah Musanı
və Harunu
Fironun yanına
geri göndərdi.



Qüdrətli hakim Allahın xidmətçilərindən Allahdan bir əlamət göstərmələrini istəyəndə Harunun əsası sürünən ilana döndü.





Firon bağırdı: “Mənim sehrbazlarımı çağırın”. Misirli sehrbazlar əsalarını yerə atanda hər bir əsa ilana döndü.



Lakin Harunun əsası onları uddu. Firon hələ də xalqı buraxmaqdan imtina edirdi.

Ertəsi gün Musa və Harun çayda Fironla rastlaşdılar. Harun əsasını çaya uzadanda Allah suyu qana çevirdi. Balıqlar öldü! Adamlar su içə bilmədi!



Lakin Firon ürəyini sərtləşdirdi. O, İsraillilərin Misirdən çıxmasına izin vermirdi.





Musa yenidən Firona Allahın xalqını buraxmasını dedi. Firon yenidən imtina etdi. Allah digər bəlanı göndərdi. Bütün Misir qurbağalarla doldu.



Hər bir ev, hər bir otaq, hətta yemək sobaları da qurbağalarla dolmuşdu! Firon yalvardı: “Mənim üçün dua edin ki, Allah qurbağaları təmizləsin”.



“Onda sizin xalqı buraxacağam”.

Ancaq qurbağalar yox olanda Firon fikrini dəyişdi. O, köləlri azad etmədi.

Sonra Allah bit adlanan milyonlarla xırda həşəratlar göndərdi.  Hər bir kəs və hər heyvan bitin dişləməsindən qaşınırdı, lakin Firon Allaha təslim olmadı.





Sonra Allah dəstə ilə mozalanlar göndərdi. Allah Misirlilərin mal-qaralarını öldürmək üçün xəstəlik göndərdi.







Allah ağrılı, irinli çibanlar göndərdi. Adamlar çox əzab çəkirdilər. Firon hələ də Allaha qarşı çıxırdı.



İrinli çibanlar bəlasından sonra Allah çəyirtkə sürüsü göndərdi. Çəyirtkələr ölkədə olan bütün yaşıl bitkiləri yedi.



Sonra Allah üç gün tam zülmət göndərdi. Lakin tərs Firon İsraillililəri azad etmirdi.

Allah xəbərdarlıq etdi: “Mən daha bir bəla göndərəcəyəm”. “Gecəyarısı bütün adamların və heyvanların ilk doğulanı öləcək”.



Allah İsraillilərə dedi ki, əgər onlar quzunun qanını qapılarının çərçivələrinə sürtsələr, onların ilk doğulanları xilas olacaq.







Gecəyarısı Misirdə böyük fəryad qopdu.

Ölüm ilk doğulanları vurmuşdu. Hər evdə ən azı, bir adam ölmüşdü.





Firon Musaya yalvardı: “Gedin”. “Gedin Rəbbə ibadət edin”.





Allahın xalqı cəld
Misir sərhədindən
kənara addımladı.


Allah Musaya Pasxa Gecəsini
xatırlamasını dedi.
Çünki Allahın mələyi
İsraillilərin evlərindən yan keçdi, amma
Firona və onun xalqına zərbə vurdu.


430 il Misirdə yaşadıqdan sonra Allahın xalqı artıq azad olmuşdu. Allah gündüz onları bulud sütunu, axşam isə od sütunu ilə aparırdı.



Lakin Fironun İsraillilərlə işi bitmədi. O, Allahı yenidən unutdu. O, fikrini yenidən dəyişdi.



O, öz ordusunu toplayaraq, kölələrin ardınca getdi. Tezliklə o, onları qayalar və dəniz arasında tələyə saldı.

Musa dedi: “Rəbb sizin üçün döyüşəcək”.  Musa dənizə doğru irəli getdi və əlini uzatdı.



Böyük möcüzə baş verdi. Allah dənizdə yol açdı. Xalq sağ-salamat keçdi.

Sonra Fironun ordusu Qırmızı dənizə girdi. Əsgərlər fikirləşdilər: “İndi biz onları tutacağıq”.  Lakin Allah suları bağladı.



Misirin qüdrətli ordusu suların altında qaldı. Artıq Firon bildi ki, İsrailin Allahı hər şeyin Rəbbidir.



# Əlvida, Firon!

Allahın Sözü, Müqəddəs Kitabdan olan bir hekayədir

Çıxış 4-15

“Kəlamının açıqlanması nur saçır”.
Məzmur 119:130

# Son

Bu Müqəddəs Kitab hekayəsi bizə, bizi yaradan və Onu tanımağımızı istəyən Allahımızdan bəhs edir.

Allah, Onun günah adlandırdığı pis şeyləri etdiyimizi bilir. Günahın cəzası ölümdür, lakin Allah səni o qədər çox sevir ki, O, Öz yeganə Oğlunu, İsanı Çarmıxda ölmək və sənin günahlarına görə cəzalandırılmaq üçün göndərdi. Sonra İsa dirildi və Göylərə getdi! Əgər sən İsaya inansan və Ondan günahlarını bağışlamasını diləsən, O, bunu edəcək!; O indi gələcək və daxilində yaşayacaq və sən əbədiyyən Onunla birlikdə yaşayacaqsan.

Əgər sən bunların həqiqət olduğuna inanırsansa, onda bunu Allaha de: Əziz İsa, mən inanıram ki, Sən Allahsan və mənim günahlarıma görə ölmək üçün insan oldun və indi Sən yenidən yaşayırsan. Xahiş edirəm, həyatıma gəl və mənim günahlarımı bağışla ki, mən indi yeni həyata malik ola və bir gün Səninlə birlikdə əbədiyyən yaşaya bilim. Sənə itaət etməkdə və Sənin övladın kimi yaşamaqda mənə kömək et. Amin.

**Müqəddəs Kitabı oxu və hər gün Allahla danış! Yəhya 3:16**